# Əqli mülkiyyət sahəsində hüquq pozuntularının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişin xüsusi rə`ylə təsdiq edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Əqli mülkiyyət sahəsində hüquq pozuntularının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında 1998-ci il martın 6-da Moskva şəhərində imzalanmış Saziş aşağıdakı xüsusi rə`ylə təsdiq edilsin:

*«Azərbaycan Respublikası həmin Sazişin bütövlükdə 7-ci maddəsi üzrə və 8-ci maddəsinin qanunvericiliyin uyğunlaşdırılmasına və bu sahədə metodologiyalara aid hissəsi üzrə öz üzərinə öhdəliklər götürmür».*

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV.***

***Bakı şəhəri, 4 dekabr 1998-ci il.***

***№ 564-IQ.***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 1998-ci il, № 12, maddə 725)***